# “Lənkəranın gülü rəng-rəng...”

❒ ***Subtropik zonamızın paytaxtı sayılan Lənkəranın tropik iqlimli Birma ilə təbii yaxınlığı var: Lənkəran meşələrinin şahı olan nadir dəmirağac Birmada da bitir. Onun adına asiyalılar punikado, avropalılarsa dəmirağac deyirlər.***

Amma bizim dəmirağac bir başqa aləmdir. İstiqlal şairi Xəlil Rza hələ 1964-cü ildə qələmə aldığı “Bahar-bahar” adlı məqaləsində yazırdı: “...Bu yerlərə payızda yolun düşə, görəsən ki, bu meşələr meşələrdir, ya rənglər dənizi. Dəmirağac elə bir görkəm alır ki, deyirsən al şəfəqlər içində alışıb yanır. Qırmızı, sarı, çəhrayı rənglərin qarışığından yaranmış bir məşəl kimi şölə çəkir”... Lənkərana gedə-gedə bu barədə düşünərkən onu da xatırladım ki, əslən Lənkərandan olan tanınmış rejissor Nazim Abbas hələ 1971-ci ildə “Dəmirağac” adlı sənədli film çəkmişdi. Yanvar ayında çiçəkləyən və və yetişmiş toxumlarını 6-8 metr kənara atan, suda batan bu qeyri-adi ağac haqqında bəhs edilənlərə böyük maraqla baxmışdım.



Sonradansa öyrənmişdim ki, əvvəllər silah istehsalıyla məşğul olmuş milyonçu Nobel Azərbaycana məhz Lənkəran meşələrinin möhkəm dəmirağac materialından ən yaxşı tüfəng qundağı hazırlamaq məqsədilə gəlibmiş. Lakin o, Bakıda fontan vuran neft quyularını görərək mədənlərə sahib olmaq arzusuna düşüb. Beləcə dəmirağac Nobelin həyatında dönüş yaradıb. O, yurdumuzda böyük sərvətə çatıb və ömrünün sonuna kimi dəmirağaca borclu olduğunu deyib.

Əliağa Kürçaylı isə bu ağacın tərənnümünə özünəməxsus şəkildə ictimai məna verib:

***Dostum, bu yerlərə yolun düşübsə,***
***Sən də keç bir kərə dəmir meşədən.***
***Yurdumda ağac da dəmirləşibsə,***
***Onun taleyindən arxayınam mən.***

Fərəhlidir ki, ağacı belə dəmirləşən Lənkəranın dəmir iradəli, vətənsevər övladları bu gün onun şöhrətini artırmaqda, gözəlliklərinə rəng qatmaqda, havasına yeni təravət gətirməkdədirlər. Burada aylar, illər bir-birini qələbələrlə uğurlayır, həyat get-gedə daha da yaxşılaşır. Elə yarımilin yekunlarına həsr olunmuş toplantıda çıxış edən Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov bildirib ki, bu ilin birinci yarısı əvvəlki illərdə olduğu kimi bir sıra uğurlarla yadda qalıb. O deyib ki, Prezident İlham Əliyevin Lənkərana davamlı qayğısı sayəsində rayonun sosial-iqtisadi və mədəni inkişafı sahəsində yeni nailiyyətlər qazanılıb, genişmiqyaslı quruculuq-abadlıq işləri görülüb, iri həcmli investisiya layihələri icra edilib.



İlin əvvəlindən rayonda ümumi məhsul buraxılışının həcmi 169,1 milyon manat olub. Sənayedə 16,2 milyon manatlıq və ya ötən ilin müvafiq dövrünə nisbətən 4,8 faiz çox məhsul istehsal edilib. Sosial layihələrin həyata keçirilməsi hər kəsdə qürur yaradıb. Dövlət başçısının təşəbbüsü ilə Lənkəranda inşa edilən Olimpiya İdman Kompleksi rayonda idmanın, turizmin inkişafına daha geniş imkanlar açacaq.

Bu yayın əvvəlindən ilk dəfə olaraq “Azal” Qapalı Səhmdar Cəmiyyətinə məxsus təyyarə ilə Lənkərandan Moskvaya hava reysi açılıb. Düz 10 il öncə cənab Prezident İlham Əliyevin xeyir-duası ilə fəaliyyətə başlamış Lənkəran Hava Limanından indiyə qədər beynəlxalq xəttlərə yalnız Rusiya təyyarələri sərnişin daşıyıblar. Yeni hava reysi ilə isə “Azal”ın təyyarələri işləyəcək. Bu da sərnişinlərin rahatlığını təmin etməklə yanaşı, cənub bölgəsində turizmin inkişafı baxımından mövcud imkanları daha da genişləndirəcək.

Göründüyü kimi, Azərbaycanın dünyaya tanıdılmasında Lənkəranın da xüsusi rolu var. Elə bir müddət əvvəl Hindistan hökumətinin dəstəyi ilə “Kalinqa” Avtomobil İdman klubu tərəfindən təşkil olunmuş “Hindistan-Azərbaycan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə avtomobil yürüşü” iştirakçıları İran-Azərbaycan sərhəddini keçərək Lənkəran şəhərinə gəlmələri də bu baxımdan böyük önəm daşıyır. Beynəlxalq avtoyürüş iştirakçıları şəhəri gəzib, “Qafqaz sahil” otelində istirahət edib və sonra Dövlət bayrağı meydanından Bakı şəhərinə yola salınıblar. Mərasimdə Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana da iştirak edib.

Rayonda “İstisu” istirahət və sağlamlıq mərkəzinin tikilməsi, çətin dağlıq ərazidən keçən Hirkan-Biləsər avtomobil yolunun yenidən qurulması, şəhərdəki çoxmənzilli yaşayış binalarının dam örtüyünün dəyişdirilməsi dövlətimizin öz vətəndaşlarına göstərdiyi qayğının təzahürüdür.

Lənkəranda şəhərdaxili küçələrin təmiri və asfaltlanması üzrə aparılan işlər də davamlı səciyyə daşıyır. Bu il ümumilikdə şəhərdaxili küçələrə 4,5 kilometr ərazidə 22 min 500 kvadratmetrlik sahəyə isti asfalt döşənib. Küçə və xiyabanlarda, magistral yolların kənarında hasar və yan daşlar təmir olunub. Əşlə kəndində ötən ilin oktyabr ayında sel sularının yuyub sıradan çıxartdığı və şəhərin Miri Cavadzadə küçəsində qəzalı vəziyyətə düşmüş 2 körpü yenidən inşa edilib. Cənab Prezidentin müvafiq sərəncamına əsasən tikilən yeni xalça fabriki isə qadınlar üçün əlavə iş yerlərinin açılmasında mühüm rol oynayacaq. Mart ayında Siyavar kəndindəki uyğunlaşdırılmış köhnə binanın əvəzinə 96 şagird yerlik modul tipli yeni məktəb istifadəyə verilib. Ucqar dağ kəndlərində modul tipli daha 4 məktəbin quraşdırılmasına və Gəgiran kəndində 264 şagird yerlik yeni məktəbin tikintisinə başlanması isə təhsilə qayğının təzahürüdür.



Bu yaxınlarda Lənkəranda vətəndaşların qəbulunu keçirən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşovla birlikdə, Əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzinə, həmçinin nazirliyin sifarişi ilə şəhərdə fəaliyyət göstərən Günərzi qayğı mərkəzinə də gedərək reabilitasiya və istirahət şəraiti ilə tanış olub. Bərpa kursu keçən şəxslərlə görüşdə bildirilib ki, yaxın vaxtlarda bu mərkəzdə əsaslı təmir və yenidənqurma işlərinə başlanacaq, sosial xidmət layihələrinin icrasında isə qabaqcıl dünya təcrübəsi metodları tətbiq ediləcək.

Bütün yaşayış məntəqələrində – şəhərdə, kənd və qəsəbələrdə məktəb, uşaq bağçası, xəstəxana və digər sosialyönümlü obyektlərin, yolların, körpülərin təmir və tikintisi, elektrik təsərrüfatının yenidən qurulması, o cümlədən, aqrar sahədə çəltikçiliyin, sitrus meyvəçiliyinin, çayçılığın inkişafına dair qəbul edilmiş dövlət proqramlarının icrası ilə əlaqədar görülən mühüm işlər, xüsusilə uzun illərdən sonra rayonda ilk dəfə barama yetişdirilməsinə başlanması və 3,7 ton yüksək keyfiyyətli barama məhsulunun tədarük edilməsi yeni uğurlar kimi dəyərləndirilə bilər.



Lənkəranda aqrar sahəyə özəl sərmayə qoyuluşu da artır. May ayında “Fruit Garden” MMC-nin rayon rəhbərliyi Separadi kəndində yeni salınan sitrus bağına baxış keçirib. Bildirilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin yerli iqtisadi sahələrə özəl investisiyaların cəlbi ilə bağlı verdiyi tapşırıqların icrası ilə əlaqədar Lənkəran rayonunda da təxirəsalınmaz tədbirlər görülür, iş adamları ilə əlaqə saxlanılır və konkret təkliflərlə onlar rayona dəvət olunurlar. Yaradılmış əlverişli şəraitdən ruhlanan imkanlı iş adamları artıq doğma yerlərinə qayıdır və burada aqrar sahəni inkişaf etdirirlər. “Fruit Garden” şirkətinin Separadi kəndi ərazisində istifadəsiz qalmış torpaq sahəsində ümumi həcmi 7,7 milyon manat olan layihə çərçivəsində limon, mandarin və greypfrut bitkilərindən ibarət sitrus plantasiyası salması təqdirəlayiqdir. T.Qaraşov belə layihələrin iqtisadi əhəmiyyətini vurğulayıb və bundan sonra da sərmayəçilərə lazımi dəstəyin veriləcəyini bildirib.

İş adamı Azər Qurbanov təsərrüfatda ilk mərhələdə görülən işlərə artıq 2 milyon manat vəsait xərcləndiyini, 150 hektar torpaq sahəsinin müxtəlif təyinatlı texnikalarla 2 dəfə şumlanaraq hamarlandığını, xüsusi texnika vasitəsilə cərgələrin hazırlandığını və əkinə başlandığını bildirib. O qeyd edib ki, əkin üçün Türkiyədən hələlik 92 min ədəd ting gətirilib. İndiyə qədər 10 hektar sahədə ağac əkini həyata keçirilib. Yeni əkilən ağacların damcı üsulu ilə suvarılmasından ötrü Türkiyə şirkəti tərəfindən təsərrüfatda suvarma qurğuları quraşdırılıb. Boyu 0,7-1 metr olan tinglər qidalı torpaqla doldurulmuş polietilin dibçəklərdə becərildiyindən onların yanma ehtimalı çox azdır. Respublikada ilk dəfə dəyəri 2 milyon 200 min dollar olan, qış mövsümündə sitrus plantasiyası ərazisində şaxtanı 10 dərəcə aşağı salacaq “Donqoruyan Pərvanə” (“Frost Guard”) tipli xüsusi avadanlıq quraşdırılacaq. Bundan əlavə, şirkət rayonun Şağlaser kəndində Türkiyədən gətirilmiş məhsuldar qoz tinglərindən 4 hektarda bağ salıb. Hazırda təsərrüfatda 120 nəfər yerli sakin çalışır, yaxın gələcəkdə sitrus bağları 500 hektara çatdırılacaq və daha 300 yeni iş yeri yaradılacaq. Hazırda oraya yeni yollar çəkilir, zəruri infrastruktur yaradılır.



Lənkəran rayon rəhbərliyinin tətbiq etdiyi idarəetmə metodları sırasında səyyar qəbul və görüşlər xüsusi yer tutur. Bu sahədə böyük təcrübəsi olan Taleh Qaraşov rayonun rəhbər heyəti ilə tez-tez kənd və qəsəbələrə yollanır, əhalinin qayğıları ilə maraqlanır, problemlərin həlli üçün əməli addımlar atılmasına çalışır. Bu ilin əvvəlindən Şağlaser, Gərmətük, Şəpnəkəran, Rvo, Liman şəhəri, Şıxəkəran, Havzava və digər yaşayış məntəqələrində belə işgüzar görüşlər təşkil olunub, qaldırılan məsələlər ciddi nəzarətə götürülüb və təkliflər üzrə tədbirlər nəzərdə tutularaq əksəriyyətlə yerinə yetirilib. Belə görüşlər kimsənin qayğılarının diqqətdən kənarda qalmadığını göstərir və əhalinin dövlət idarəetməsinə inamını daha da artırır.

…Yazımın əvvəlində ormanlar gözəli dəmirağacdan bəhs etmişdim. Dəmirağac gözəllik, möhkəmlik, vüqar rəmzi sayılır. Bu keyfiyyətlərinə Lənkərana və lənkəranlılara xas olması, fikrimcə, heç bir şübhə doğurmur.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***